**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akad. Z.M.BÜNYADOV adına ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**YUNUSOVA GÜNEL KAMİL QIZI**

# TƏNZİMAT POEZİYASINDA ƏNƏNƏ VƏ NOVATORLUQ

**5717.01 – Türk xalqları ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2 0 1 6**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Elman Hilal oğlu Quliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Aydın Müstəcəb oğlu Abıyev**
filologiya üzrə elmlər doktoru, professor

**Firuzə Abdulla qızı Ağayeva**
filologiya üzrə elmlər doktoru, dosent

**Aparıcı təşkilat:** **AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Türkdilli əlyazmaların tədqiqi" şöbəsi**

**Müdafiə** "_27__" 04_______ 2016-cı il saat ___ -da Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD 01.151
Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti 115,VII mərtəbə, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

**Avtoreferat** "___ " "_________" 2016-cı il tarixində göndərilmişdir.

**FD 01.151. Dissertasiya**
**Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru:** **Zenfira Ədhəm qızı Şıxəlibəyli**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Tənzimat ədəbiyyatı XIX əsrin II yarısında formalaşan Avropasayağı Türk ədəbiyyatının ilk və yeni mərhələsidir. 1860-1895-ci illəri əhatə edən bu dövr ədəbiyyatın yaranmasında beynəlxalq aləmdə, məxsusi olaraq Avropa və Osmanlıda gedən ictimai-siyasi proseslərin böyük təsiri olmuşdur. Tənzimat türk ədəbi hadisəsi olsa da, burada Avropa elmi, ağlı və siyasi nüfuzunu inkar etmək mümkün deyildir. Avropanın siyasi-iqtisadi gücünün artması, Şərqin isə bu cəhətdən geri qalması xalqların Avropalaşmaq istəyini artırırdı. Bu istəkdən sui-istifadə edən Avropa öz növbəsində siyasi-iqtisadi maraqları çərçivəsində Şərqə sahib olmaq niyyətlərini gizlətmirdi. Buna görə də Avropanın Şərq maraqlarının qarşısında dayanan Osmanlı imperiyasını dağıtmaq, bu məqsədlə ərəb və Balkan ölkələrində anti-türk iğtişaşlarını genişləndirmək, Osmanlını siyasi, iqtisadi, mədəni, elmi, hərbi və s. baxımdan zəifləmək və asılılıq saxlamaq səyləri xeyli güclənirdi. 1839-cu il 3 noyabr tarixli Tənzimat fərmanı Avropanın Türkiyəyə, o cümlədən Şərqə siyasi nüfuzu üçün zəmin yaratmışdır. Ancaq Tənzimat islahatı Türkiyənin ictimai-siyasi həyatı ilə yanaşı, onun mədəni-elmi, ədəbi-bədii sferasında da köklü dəyişikliklərə təkan verdi. İlk növbədə bu fərmanın təsiri nəticəsində yaranmış, 35 illik tarix yaşamış Tənzimat ədəbiyyatı Türkiyə türk ədəbiyyatına yeni mərhələ kimi daxil olmuşdur. Bu mərhələdə ədəbiyyatda forma, mövzu, ideya və s problemlər həm əski, həm də Avropa ədəbi dəyərləri daxilində həllini tapırdı. Tənzimat ədəbiyyatı timsalında Türkiyədə böyük bir ədəbi mərhələ və böyük ədəbi nəsil formalaşdı. Formalaşmış yeni ədəbi nəsillər həm Tənzimat ədəbiyyatı dövründə (1860-1895), həm də sonrakı "Sərvəti-fünun", "Fəcri-ati" mərhələlərində metod baxımından Qərb, ruh baxımından milli ədəbiyyat yaratmışdılar. Tənzimat ədəbiyyatı janrların inkişafı üçün də yeni mərhələ hesab olunur. Bu dövrdə poeziya, nəsr, dramaturgiya yeni ədəbi istiqamətdə inkişaf edirdi. Artıq Türkiyə ədəbiyyatında nəsr, dramaturgiya və poeziyada istər janr, istərsə də, mövzu və ideya tələbləri Fransız ədəbi estetikasına uyğunlaşdırılırdı. Molyer, Kornel, Şekspir və digərlərinin təsiri Türkiyə ədəbiyyatında Avropasayağı dramaturgiyanın yaranması üçün zəmin yaratdı. İ.Şinasinin "Şairin evlənməsi", N.Kamalın "Vətən, yaxud Silistrə", "Gülnihal", "Cəlaləddin Xarəzmşah", R.Əkrəmin "Çox bilən çox yanılar", "Atala, yaxud Amerika vəhşiləri", Ə.Hamidin "Əşbər", "Hind qızı", "Nesteren" və

bu kimi digər əsərlərdə problemin ictimailəşdirilməsi, cəmiyyət məsələlərinə önəm verilməsi Avropa dram ənənələrinə uyğunluğun göstəricisidir. Tənzimat ədəbiyyatının formalaşması ilə D.Defo, V.Hüqo, T.Kasar, Yesage bu kimi və digər Qərb nəsrinin görkəmli şəxsiyyətlərinin nəsr təcrübələrinin Türkiyəyə “ixracı” nəticəsində yeni nəsr nümunələri meydana gəldi. Şəmsəddin Sami, Nəbizadə Nazim, Namiq Kamal, Recaizadə Əkrəm və s. sənətkarların nəsr əsərlərində ictimai-siyasi həyatın tipik mənzərələri, xarakter xüsusiyyətləri əksini tapırdı. Bu nümunələr Türkiyə ədəbiyyatının yeni səhifəsini təşkil edir, bir növ cəmiyyətin bütün təbəqələrinin həyatını əks etdirməkdə əhəmiyyətli görünürdü. Cəmiyyətdə baş vermiş proseslər yeni nəsr nümunələrinə sığa bilir və nəsrin imkanları hadisələri özündə ehtiva edə bilirdi. Məlumdur ki, türk poeziyasının tarixi olduqca qədimdir. Buna baxmayaraq Tənzimat dönəmində Türkiyədə digər sahələr kimi poeziya sənəti də Qərb təsirlərinə məruz qalmış, yeni ədəbi təmayüllər daxilində inkişaf etmişdir. Nəticədə Tənzimat poeziyası divan və modern şeir tipi, qarşılıqlı əlaqə, müəyyən hallarda isə bir-birini inkar etməklə həm yeni ədəbi-tarixi mərhələyə qədəm qoydu, həm də Tənzimatdan sonrakı dövr poeziyasında müəyyən əlamətləri ilə özünü mühafizə edə bildi. İstər Türkiyə, istərsə də Azərbaycan ədəbiyyatşünaslığında Tənzimat ədəbiyyatı problemlərinin araşdırılmasına xüsusi diqqət ayrılmışdır. N.S.Banarlı, Ə.Kabaklı, Ə.H.Tanpınar, K.Akyüz, B.Ayvazoğlu, T.Gönensay, M.Kaplan, Z.Kerman, İ.Kocakaplan, A.Abıyev, Ə.Rəsulov, A.Qurbanov, R.Hüseynov, E.Quliyev və digər ədəbiyyatşünasların araşdırmalarında Tənzimat ədəbiyyatı problemləri müxtəlif baxımdan öyrənilmişdir. Lakin konkret olaraq Tənzimat poeziyası ənənə və novatorluq kontekstində tədqiq olunmamışdır. Ona görə də dissertasiyanın mahiyyətini təşkil edən Tənzimat poeziyasında ənənə və novatorluq problemlərinin öyrənilməsi ədəbiyyatşünaslıq qarşısında aktual məsələ kimi dayanır.

Tənzimat poeziyasında ənənə və novatorluğun necə təzahür etdiyini, bu prosesin poeziyasının inkişafında oynadığı rolu, poeziyanın inkişaf istiqamətlərini araşdırmaq aktuallıq dərəcəsini daha da artırır. Tənzimat poeziyasında ənənə və novatorluq problemlərindən danışarkən keçmişlə bu günün qarşılıqlı əlaqələrinin, təsir dairəsinin, eyni zamanda bir-birini inkar şəraitində gedən ədəbi proseslərin mənzərəsinin təhlili elmi baxımdan olduqca vacibdir. Bu yanaşmada keçmişlə bu günün zahiri görüntülərinin deyil, ədəbi keçmişlə ədəbi bu günün mahiyyətinin,

keyfiyyət dəyişmələrinin araşdırılması zərurəti problemin aktuallığını başqa tərəfdən şərtləndirir.

Təbii olaraq Tənzimat poeziyasında forma və məzmun baxımından da bir sıra keyfiyyət dəyişmələri olmuşdur. Müəyyən şəkil dəyişmələri, ənənəvi mövzulara yeni baxış Tənzimat poeziyası üçün xarakterik cəhətlərdən hesab edilir. Tənzimat ədəbiyyatının bu baxımdan da araşdırılması ədəbiyyatşünaslıqda aktuallıq baxımından əhəmiyyət daşıyır. Məlumdur ki, Tənzimat ədəbiyyatı 1860-1880-cı və 1880-1895-ci illəri əhatə edən iki mərhələyə bölünür. "Sənət cəmiyyət üçündür" prinsipini əsas seçən birinci mərhələnin İ.Şinasi, N.Kamal, Z.Paşa, Midhəd Əfəndi və "Sənət sənət üçündür" prinsipinə söykənən ikinci mərhələnin R.Əkrəm, Ə.Hamid, Naci, Sezai kimi aparıcı nümayəndələri ümumi bir məxrəcdə birləşsələr də, hər iki mərhələyə məxsus fərdi xüsusiyyətlər mövcud idi. Problemin öyrənilməsi bu baxımdan da aktualdır.

**Tədqiqatın obyekt və predmeti**. Türkiyədə yeni ədəbi mərhələ olan Tənzimat ədəbiyyatında ənənə və novatorluq problemləri dissertasiyanın obyekti hesab edilir. Tədqiqatın predmeti isə 1860-1895-ci illər Tənzimat poeziyasının inkişaf xüsusiyyətləri, onun mərhələləri, estetik-bədii prinsiplərinin tədqiqi ilə bağlıdır. Bu dövrün ayrı-ayrı sənətkarlarının yaradıcılıqlarının, fərdi poetik keyfiyyətlərinin əski və yeni şeir prinsipləri daxilində araşdırılması, həmin şairlərin poetik irsinin elmi təhlili tədqiqatımızın predmetinə aiddir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqat işində əsas məqsəd 1860-1895-ci illər Tənzimat ədəbiyyatı poeziyasında ənənə və novatorluq məsələlərini ümumi inkişaf kontekstində öyrənməkdir. Ədəbiyyatda ənənə və novatorluq problemi kifayət qədər əhəmiyyətlidir. Ümumiyyətlə, istənilən sənət növü bu problemdən kənarda qala bilməz. Yəni nə zamansa yeni olan sonralar ənənəyə çevrilir. Məsələn, N.Gəncəvi, C.Rumi öz zamanlarında tamamilə yeni idilər, amma zaman keçdikcə onların sənəti ənənə rolunda çıxış etdi. Bu cür inkişaf, formalaşma təbii olaraq bütün zamanlar üçün xarakterikdir. Ənənə sonrakı mərhələ üçün əsaslı bünövrədir. Bir sözlə, ənənəsiz ədəbiyyatı təsəvvürə gətirmək qeyri-mümkündür. Bütün bu prosesləri izləmək və bu proseslərin nəzəri təhlilini vermək, dəyərləndirmək elmi məqsəd daşıyır. Dissertasiyada qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin icrası nəzərdə tutulur:

– Tənzimat ədəbiyyatının, konkret şəkildə isə Tənzimat poeziyasının yaranma səbəbləri;

– Tənzimat poeziyasının prinsipləri və bədii estetikasının mahiyyətinin açıqlanması;

– poeziyada ənənə və novatorluğun mahiyyəti, ədəbiyyatın inkişafında oynadığı rolun təhlilinin verilməsi;

– Tənzimat poeziyasında ənənə və novatorluğun qarşılıqlı təsir və dialektik əlaqələrinin araşdırılması;

– Tənzimat ədəbiyyatı və dövrü mətbuat problemlərinə diqqət ayırmaq;

– Tənzimat poeziyasının forma və mövzu dairəsinin təhlili;

– Tənzimat poeziyasının birinci mərhələsi, bu mərhələnin əsas xüsusiyyətlərinin təhlili;

– Tənzimat poeziyasının ikinci mərhələsi və onun bədii-estetik xüsusiyyətlərinin təhlili;

– Tənzimat poeziyasında əski şeir ilə yeni şeir modelinin forma, məzmun, ideya fərqlərinin araşdırılması;

– Tənzimat poeziyası timsalında Şərq və Qərb ədəbi-estetik dəyərlərinin araşdırılması;

– Tənzimat poeziyasında dildə sadələşmə tələbinin, vətənçilik, hürriyyətçilik və s. ideyaların mahiyyətinin açıqlanması və bunun ayrı-ayrı sənətkarların yaradıcılıqları kontekstində araşdırılması.

**Tədqiqatın nəzəri-metodoloji əsası**. Tədqiqatın nəzəri-metodoloji əsasını müasir türk ədəbiyyatşünaslığının nəzəri prinsiplərini özündə ehtiva edən tarixi-müqayisəli təhlil üsulu təşkil edir. Təhlil prosesində həmçinin Şərq və Qərb ədəbi-nəzəri dəyərlərinə istinad edilmiş, problemi öyrənmək baxımından əhəmiyyət kəsb edən ədəbi-bədii, elmi-nəzəri və elmi-tarixi materiallardan da bəhrələnilmişdir.

**Mövzunun tədqiq tarixi.** Tənzimat ədəbiyyatının tarixi 1860-cı ildən başlayır. Təbii olaraq Tənzimat ədəbiyyatı, konkret olaraq Tənzimat poeziyası ilə bağlı nəzəri araşdırmaların tarixi də bundan sonrakı dövrlərə düşür. Tənzimat poeziyasına münasibət ilk olaraq XIX əsrin II yarısında dövrü mətbuatda çap olunan məqalələrdə əksini tapmışdır. İlk məqalədə İ.Şinasinin, Z.Paşanın, N.Kamalın, R.Əkrəmin, Ə.Hamidin və başqalarının Tənzimat ədəbiyyatı ilə bağlı məqalələri problemə müəyyən aydınlıq gətirmək baxımından əhəmiyyət kəsb edirdi. Ancaq bir cəhəti nəzərə almaq lazım idi ki, onların fikirləri peşəkar ədəbi-tənqidi səviyyədə deyil, yazıçı tənqidi səviyyəsində dayanırdı. Tənzimat ədəbiyyatının istər Türkiyədə, istərsə də Azərbaycanda geniş şəkildə elmi-nəzəri araşdırılması XX əsrin təxminən ortalarından başlayır. Türkiyə ədəbiyyatşünaslığındakı

araşdırmalar həm say çoxluğu, həm də problemə nəzəri-estetik kontekstdə münasibət baxımından əhəmiyyətlidir. Tədqiqatların böyük əksəriyyətində Tənzimat ədəbiyyatı vahid ədəbi orqanizm kimi götürülmüş və təhlilə cəlb edilmişdir. Digər tədqiqatlar isə Tənzimat dönəmində poeziya, nəsr və dramaturgiyanın inkişaf mənzərəsinə həsr edilmiş, müxtəlif janrlı əsərlər forma, mövzu, ideya baxımından təhlil olunmuşdur. Kenan Akyüz "Batı tesirinde türk şiiri antolojisi" (1986), Nihad Sami Banarlı "Resimli türk edebiyatı tarihi" (II cilt, 1971), Ahmet Kabaklı "Türk edebiyatı" (III cilt , 1997), Mehmet Kaplan "Tanzimat edebiyatı" (1981), Seyit Kemal Karaalıoğlu "Tanzimat edebiyatı" (1978), Reşat Kaynar "Mustafa Reşit Paşa ve Tanzimat" (1985), Şemseddin Kutlu "Tanzimat dönemi türk edebiyyatı" (1985), İsmayıl Parlatır "Tanzimat şiiri, Tanzimat nesri" Büyük türk klasikleri, (cilt 8, 1988), Cevdet Kudret Solok "Tanzimat edebiyatı türk edebiyatında Hikaye ve roman" (1965), Ahmet Hamdi Tanpınar "XIX asır türk edebiyatı tarihi" (2006), Tüncer Hüseyn "Tanzimat edebiyyatı" (1986), Ramazan Korkmaz "Yeni türk edebiyatı" (2005), İsa Kocakaplan "Namiq Kemal" (2009) və s. əsərlərdə Tənzimat ədəbiyyatının yaranma səbəbləri, onun mahiyyəti, yeni poeziya, nəsr, dramaturgiya özünəməxsusluğu, ədəbi mübarizələr, konkret ədəbi şəxsiyyətlər və digər problemlər haqqında araşdırmalar əksini tapmışdır. Kifayət qədər elmi dəyəri yüksək olan bu əsərlər Tənzimat ədəbiyyatının əsas xüsusiyyətləri barədə fikrin formalaşmasında və sonrakı ədəbi prosesə təsiri istiqamətində oynadığı rolu müəyyənləşdirməkdə əhəmiyyətli mənbə hesab oluna bilər. Azərbaycan ədəbiyyatşünaslığında da bu istiqamətdə müəyyən uğurlu tədqiqatlar aparılmışdır. Təbii ki, Türkiyədə aparılan araşdırmalar Azərbaycandakı araşdırmalar üçün əsas elmi mənbə rolunda çıxış etmişdir. Aydın Abıyevin "Türkiyə ədəbiyyatı tarixi" (2007), "Türk ədəbiyyatında satira" (1991), Allahşükür Qurbanovun "Əbdülhaq Hamid" (1987), Əsgər Rəsulovun "Türk sənədli-bədii nəsri" (2004), Rüstəm Hüseynovun "Namiq Kamal" (1990), Elman Quliyevin "Türkiyə türk ədəbiyyatı (XIX-XX əsrlər)" (2003), "Türk xalqları ədəbiyyatı" (2014) və s. kitablarda bir çox məsələlərdə yanaşı Tənzimat prinsipləri daxilində elmi-nəzəri təhlillərə də yer verilmişdir. Göründüyü kimi Azərbaycan türkologiyası və ədəbiyyatşünaslığında Tənzimat poeziyası əlahiddə götürülərək ənənə və novatorluq problemləri daxilində araşdırılmamışdır.

**Dissertasiyanın elmi yeniliyi**. Dissertasiyada Tənzimat ədəbiyyatında ənənə və novatorluq problemi Azərbaycan türkologiyası və

Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə tədqiq olunaraq Tənzimat poeziyası kriteriyalarının ədəbi inkişaf xəttindəki rolu müəyyənləşdirilir.

– Yeni ədəbi istiqamət kimi Tənzimat ədəbiyyatında ənənənin rolu və yeri araşdırılır.

– Dövrü mətbuat və Tənzimat ədəbiyyatı qarşılıqlı əlaqə, inkişaf problemləri daxilində təhlil olunur.

– Tənzimat şeirinin "sənət sənət üçün", "sənət cəmiyyət üçün" bədii-estetik dəyərləri araşdırılır.

– Tənzimat poeziyasında əski şeir ilə yeni şeir modelinin forma, məzmun, ideya fərqləri tədqiq olunur.

– Tənzimat poeziyası timsalında Şərq və Qərb ədəbi-estetik dəyərləri təhlil olunur.

– Tənzimat poeziyasında dildə sadələşmə, ideyada vətənçilik, hürriyyətçilik problemləri araşdırılır.

– Tənzimat dönəmində ədəbi təmayüllər və onların ədəbi prosesə təsiri məsələlərindən bəhs açılır.

– Tənzimat şairlərinin yaradıcılıq ziddiyyətləri kompleks halda təhlilə cəlb olunur.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya nəzəri və praktik baxımdan əhəmiyyətlidir. Tənzimat ədəbiyyatı problemləri daxilində ənənə və novatorluq, şeirin forma, məzmun, ideya, üslub xüsusiyyətləri, türk ədəbi-estetik dəyərləri divan və modern şeiri, fərdi və poetik üslub və s. haqqında elmi mülahizələr dissertasiyada nəzəri əhəmiyyət daşıyır. Dissertasiyanın praktik əhəmiyyəti isə bir elmi mənbə kimi nəzəri, metodik kitabların hazırlanmasında, universitet müəllimlərinə, doktorant, magistr və tələbələrə, o cümlədən orta məktəbin müvafiq ixtisas sahiblərinə verəcəyi fayda ilə bağlıdır.

**İşin aprobasiyası**. Dissertasiya Gəncə Dövlət Universitetinin Elmi şurasında təsdiq olunmuş və həmin universitetin müvafiq kafedrasında yerinə yetirilmişdir. İşin əsas müddəaları xaricdə və Azərbaycanın ayrı-ayrı jurnal və elmi məcmuələrində çap olunmuş, müxtəlif beynəlxalq elmi konfranslarda mövzu ilə bağlı çıxış edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri-metodoloji əsasları, mövzunun tədqiqat tarixi, müdafiəyə çıxarılan elmi müddəalar, işin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, işin aprobasiyası, dissertasiyanın quruluşu ilə bağlı fikirlər yer alır.

Dissertasiyanın **"Tənzimat poeziyası XIX əsrin II yarısı türk ədəbiyyatının yeni mərhələsi kimi"** adlanan və iki yarımfəsildən ibarət I fəslinin **"Tənzimat ədəbiyyatı və onun prinsipləri"** adlı birinci yarımfəslində Tənzimat ədəbiyyatının yaranması və onun əsas prinsiplərinin nədən ibarət olmasından, bu prinsipləri şərtləndirən cəhətlərdən bəhs açılır. Qeyd olunur ki, tarixin XVIII əsrdən XIX əsrə adlaması ilkin anlamda xronoloji keçid prosesi olsa da, XIX əsr əvvəlki əsr dəyişməsindən xeyli fərqlənirdi. Avropanın həm siyasi güc mərkəzinə, həm də mədəni mərkəzə çevrilməsi XIX əsrin payına düşür. Avropanın Şərq marağı da, Şərqin Avropalaşmaq istəyi də XIX əsrin payına düşür. Lakin Türkiyədən Hindistana və oradan da Yaponiyaya qədər uzanan bu istək və marağın bir başında müxtəlif xalqların milli-mədəni inkişaf meylləri dayanırdısa, o biri başında Avropanın xalqları parçalamaq, qeyd etdiyimiz kimi onların milli iradə güclərini qırmaq və s. ideyaları dayanırdı. Bütün bu hallar, bir qədər də dəqiq ifadə etsək bu maraqlar dünyada milli mübarizə və müharibələrə şərait yaradırdı. Ancaq hər cür iqtisadi, siyasi, mədəni inkişafın mərkəzində Avropa dayansa da, "müharibə mərkəzləri" Şərqin payına düşürdü.

XIX əsrdə Avropanın siyasi nüfuzu Şərqə təsir etdiyi kimi, onun elmi və mədəni nüfuzu da Şərqdən yan keçmirdi. Lakin fərq onda idi ki, Şərq Avropanın elmi və mədəni potensialını öyrənməyə və qəbul etməyə ehtiyac duyurdu. Kilsəni elm ilə birləşdirən və bunun nəticəsində böyük nailiyyətlər əldə edən Avropanın XIX əsr elmi və mədəni modeli Şərq üçün olduqca əhəmiyyətli idi. Avropanın yeni üsullu məktəbləri Şərqin dini məktəblərindən uzaqlaşaraq üsuli-cədid məktəblərinin yaranmasına birbaşa təsir göstərdi. Qeyd edək ki, Avropanın əksər sahələrdə Şərqə təsiri Türkiyədən başlayırdı. Bunu həm Türkiyənin yerləşdiyi region, həm də Türkiyənin Şərq dövlətləri ilə müqayisədə fərqli siyasi, iqtisadi və elmi üstünlüyü ilə bağlamaq doğru olar. Osmanlı imperiyası XVIII əsrdən etibarən özünün siyasi qüdrətini itirməyə başlasa da, elmi-mədəni baxımdan Avropaya yaxınlaşmaq meyllərini gücləndirirdi. III Əhməd hakimiyyəti illərində Osmanlının Lalə dövrü kimi xarakterizə olunan

mərhələni həyata keçirməsi Avropalaşmaq yolunda atılan ilk addımlardan biri idi.

"1773-cü ildə "Məktəbi-riyaziyyə", 1776-ci ildə "Həndəsə odası", 1783-cü ildə "Mühəndisxaneyi Bəhri-Humayun", 1827-ci ildə "Məktəbi-tibbiyyə", 1831-ci ildə "Muzıkayı-Humayun", 1834-cü ildə "Məktəbi-hərbiyyə" məktəblərinin açılması, o cümlədən gəmi mühəndisləri hazırlamaq üçün Avropa məktəbləri ilə əlaqələrin qurulması Avropalaşma üçün təmələ çevrilirdi. Lakin Avropalaşmanın rəsmi əsası isə 1839-cu il 3 oktyabr bazar günü tarixində "Tənzimat" fərmanının elanı ilə qoyuldu. Bu fərman II Mahmudun ölümündən sonra taxta sahib olan oğlu Əbdülməcidin xeyir-duası ilə qəbul edilmişdir. Sultan Əbdülməcid Avropa təsirli olduğundan xarici işlər naziri Rəşid Paşa tərəfindən hazırlanan fərmanı dəstəkləmişdi. Fərman sultanın, əyanların, xarici elçilərin, xalq nümayəndələrinin iştirakı ilə Gülhanə parkında elan olunmuşdur. Ona görə "Tənzimat" fərmanı "Gülhane Hatti Hümayünü" adı ilə də tanınır."[1] Lakin XVIII və XIX əsrlərdə Türkiyədə açılan yeni üsullu məktəblər Avropalaşmaq yolunda daha böyük təsirə malik idi. Onu da əlavə edək ki, bu cür məktəblər Türkiyənin Avropalaşmasının təməlinə, "Tənzimat" islahatının aparılması isə rəsmi əsasına çevrildi. Bir çox araşdırmalarda Tənzimat fərmanının xarakteri və onun ədəbi prosesə təsiri məsələləri geniş təhlil obyektinə çevrilmişdir. Görkəmli ədəbiyyatşünas alim Nihat Sami Banarlı Tənzimatla bağlı fikirlərini belə ifadə edirdi: "Tanzimat Osmanlı devletinin öteden beri haberli olduğu Avrupa medeniyetini, bütün Türk-Osmanlı halkı ve hayatı için kabul etmek yolunda giriştiği bir devlet hamlesidir. Bu hareket ilk bakışta Türkiyenin Avropa medeniyeti dairesine girmesi gibi görünür. Hakikatda Tanzimat inkilabı Avropa medeniyetinin bir takım siyasi, askeri ve iktisadi baskılarla kendini Türkiyeye kabul etdirmesi demektir."[2]

Tənzimatın mahiyyətində Avropalaşmaq dayanır. XIX əsrin II yarısında formalaşan Tənzimat ədəbiyyatının mahiyyətində Qərb ədəbiyyatı ideyaları dayanırdı. Bu ədəbiyyat ilkin olaraq Türkiyəyə ideya kimi gəldi və sonralar ədəbi hadisəyə çevrildi. Təbii ki, Tənzimat ədəbiyyatının ideya, məzmun, forma və s. xüsusiyyətləri İ.Şinasi, N.Kamal, Ziya Paşa, R.Əkrəm və s. sənətkarların yanaşmalarında təhlil olunur, bilavasitə onların təhlillərində yeni ədəbiyyatın üstünlükləri barədə fikir

---

[1] *Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, "Apostroff", 2014, s.121*
[2] *Banarlı N.S. Resimli türk edebiyatı tarihi, II cilt. İstanbul, 1971, s.811*

formalaşırdı. Qeyd edək İ.Şinasi, N.Kamal, Ziya Paşa, R.Əkrəm və digər Tənzimatçılar yeni ədəbiyyatla bağlı fikirlərini "Təsviri-əfkar", "Müxbir", "Hürriyyət", "Tərcümani-həqiqət", "Məcmuəyi-fünun", "Məlumat" və s. qəzet və jurnallarında çap etdirirdilər.

Bu sırada İ.Şinasinin "Cərideyi-havadis"də dil və sənətlə, N.Kamalın "Təsviri-əfkar"ında ədəbiyyatda dil problemlərilə, Ziya Paşanın "Hürriyyət"də yeni ədəbiyyatda ənənə və novatorluq məsələlərilə bağlı fikirləri daha önəmli əhəmiyyət daşıyır.

Fəslin bu hissəsində qeyd olunur ki, ictimai-siyasi proseslərin təsirində yaranan Tənzimat ədəbiyyatının inkişaf və formalaşmasında dövrü mətbuatın böyük rolu vardır. Ədəbi-nəzəri, ədəbi-tənqidi fikirlərin mətbuatda yer alması yeni ədəbiyyatın inkişafında az rol oynamamışdır. İ.Şinasinin, Z.Paşanın, N.Kamalın, Ə.Hamidin, Muallim Nacinin və başqalarının dil, ənənə, mövzu, ideya və s. bağlı fikirləri yeni ədəbiyyatın problemləri ilə bağlı mübahisəli məqamlara aydınlıq gətirirdi. Ümumiyyətlə, dövrü mətbuatın ictimai-siyasi, elmi-mədəni həyatda oynadığı əhəmiyyətli rolu nəzərə alsaq, Tənzimat fərmanından sonra Türkiyədə dərc olunan qəzet və jurnaların bu istiqamətdəki rolunu anlamaq çətin olmaz. Nəzərə almaq lazımdır ki, əksər sənətkarların Qərb meylləri Şərq aliliyinin təsdiqindən keçirdi.

Görkəmli şərqşünas alim prof. Aida İmanquliyeva "Şərqin keçmiş əzəməti" fonunda onun mənəvi-estetik dəyərlərinin dünyaya təsiri barədə mülahizələri Şərq aliliyinin təsdiqinə sübutdur.[1]

Tənzimat ədəbiyyatı üçün Fransa ədəbiyyatı və ədəbi-estetik cəhətləri kriteriya olduğu üçün Türkiyə ədəbiyyatında yeni olan komediyalar üçün də Molyer stili örnək olmuşdu. Məsələn, "Şairin evlənməsi" əsərində biz bu cəhəti görə bilirik. Əsərdəki Müştaq bəy, Hikmət əfəndi, Həbibə arvad, Qumru xanım və s. obrazların dili, hərəkət və münasibətləri birbaşa olaraq onların xarakter və həyatı mövqeləri ilə uzlaşdırılır. İ.Şinasi burada problemi türk ədəbiyyatı üçün ilk və yeni olan ictimai müstəvidə təqdim etməyi bacarır. Tənzimat teatrında vətənpərvərlik və tarixilik amili əsas predmet kimi hesab olunurdu. N.Kamal, Ə.Hamid dramaturgiyasında vətərpərvərlik, qəhrəmanlıq, düşmənə nifrət, heç şübhəsiz, Avropa dramaturji ənənələri ilə bağlanan cəhətlərdən biridir. N.Kamalın "Vətən, yaxud Silistrə", Ə.Hamidin "Əşbər" və bu kimi onlarla dramatik konfliktlərin gərginliklərini əks etdirən dram əsərlərində istər

---

[1] *İmanquliyeva A. Yeni ərəb ədəbiyyatı korifeyləri. Bakı, "Elm", 2003, s.166*

əsgər olsun, istər hökmdar, onların vətənin istiqlalı və xoş gələcəyi naminə ölümdən qorxmaması, mübarizə əzmkarlıqları və əsərdəki digər bədii konflikt keyfiyyətləri Avropa təsiri ilə bağlanırdı. Bir cəhəti də qeyd edək ki, Tənzimatın ilk dönəmində dramaturji əsərlərin dili sadə, anlaşıqlı xalq danışıq dili idi.

Tənzimat dramaturgiyasında problem fərd, ailə çərçivəsindən çıxaraq, ictimailəşmə səviyyəsinə çatdırılır. Artıq burada fransız dramlarında olduğu kimi cəmiyyət məsələlərinə önəm verilir. Bu mənada Ə.Hamid, N.Kamal, Əhməd Midhəd Əfəndi və digər dram yazan sənətkarların birbaşa fransız dramaturgiyası nümayəndələri Molyer, Kornel, Rassin və s. ilə əlaqələri diqqətdən yayınmır.

Tənzimat ədəbiyyatının təsiri özünü nəsr sahəsində də göstərməyə başladı. Məlumdur ki, V.Hüqo, D.Defo və digər Avropa nəsr nəhənglərinin ədəbi təsiri dünya ədəbiyyatında özünü həmişə nümayiş etdirmişdir. Ən inkişaf etmiş ədəbiyyatlar bu şəxslərin qələm təcrübəsini əxz edərək bir sıra ədəbi nümunələr ərsəyə gətirə bilmişdir. Bu mənada Tənzimatla başlayan Türkiyə nəsr ədəbiyyatına qərb ədəbiyyatının təsiri təbii idi. Qərb nəsrinin Türkiyə türk ədəbiyyatına təsiri ilkin olaraq Qərb şedevrlərinin tərcümələri ilə başladı. V.Hüqonun “Səfillər”, D.Defonun “Robinzon Kruzo” və s. əsərlərin türk dilinə tərcüməsi Avropa ilə Türkiyə türk ədəbiyyatı ilə əlaqələrin yaranmasında və Qərb nəsr modelinin Türkiyə türk ədəbiyyatına “ixracında” böyük rol oynadı. Əhməd Midhət Əfəndinin “Zətaifi-rəvayət”, “Yeniçərlər”, Emin Nihadın “Müsamərətnamə”, N.Kamalın “İntibah”, “Cəzmi”, R.Əkrəmin “Araba sevdası”, Xalid Ziyanın “Nemida” və digər müəlliflərin bir-birinin ardınca yazmış olduqları nəsr əsərləri yeni nəsr tələblərini ödəyir və Avropasayağı nəsrin inkişafında mühüm yer tuturdu.

Tənzimat ədəbiyyatı dövründə poeziya nəsr və dramaturgiya ilə müqayisədə bir qədər özünəməxsus inkişaf mərhələsinə qədəm qoydu. Çünki Tənzimat ədəbiyyatına qədər poeziya mövcud ədəbiyyatda minillik ənənəyə sahib idi. Qeyd edək ki, bu ənənə adi ənənə sayıla bilməzdi. Əgər nəsr və dramaturgiya sahəsində janra məxsus Qərb ənənəviliyi hakim idisə, poeziyada isə Şərqin qazandığı uğurlar həm çox idi, həm də təsir dairəsi geniş idi. Volterin, Russonun, Getenin və digər Qərb sənətkarlarının Şərq poeziya ənənələrinə rəğbətini nəzərə alsaq, bu zaman Şərqin poeziya sahəsində Qərbə təsirini inkar etmək olmaz. Lakin ictimai-siyasi proseslərin XIX əsr yeni mərhələsi poeziyanın mövzu və ideyasında dayanan Şərq ənənəviçiliyinin dəyişməsinə təsirsiz ötüşmədi. M.F.Axundzadənin bu sahədəki çalışmalarının kökünü məhz XIX əsr ictimai-siyasi proseslərində

axtarmaq lazımdır. Ona görə də Şərq ənənəvi poeziyası nə qədər böyük ədəbi yol qət etsə də, nə qədər əhəmiyyətli mövqe tutsa da, yeni dövrün tələblərinə uyğun dəyişməsi zəruri idi. Bu dəyişmə həm forma, həm də mövzu baxımından özünü göstərirdi. N.Kamal, Z.Paşa və R.Əkrəmin yeni şeirlə bağlı fikirləri Avropasayağı şeirin Türkiyə türk ədəbiyyatına gəlişində və inkişafında mühüm rol oynadı. Prof. Elman Quliyev doğru olaraq qeyd edir ki, "XIX əsrə qədər Şərq-Türk poeziyası keçdiyi çoxəsrlik tarixi yolda Nizami, Xaqani, C.Rumi, Y.İmrə, Nəsimi, Füzuli, Fəraqi və s. şəxsiyyətləri ilə fəxr etmişdir. Lakin divan şeir ənənəsinin Avropa şeir ənənəsi ilə əvəzlənməsini şərtləndirən Tənzimat dönəminə böyük ənənəsi olan bu poeziya istər-istəməz Qərb şeirindən çox şeyləri əxz etmək məcburiyyətində qaldı. Şinasi ilə başlayan, Ziya Paşa ilə möhkəmlənən, N.Kamal ilə dərinləşən Qərb şeir ənənəsi Türkiyə poeziyasında yeni forma və yeni mövzuların tətbiqini zəruri etdi...

Ziya Paşa "Şeir və inşa" və "Xatirat" məqalələrində, Namiq Kamal "Təhribi-xarabat" və "Lisani Osmaninin ədəbiyyatı haqqında" yazılarında, Recaizadə Əkrəm "Təlimi-ədəbiyyat"ın ön sözündə divan şeiri ilə yeni şeirə olan münasibətlərini açıqlayırdılar. Tənzimat şeirində ilk dəyişiklik şeirin şəkil dəyişikliyi hesab olunur. Artıq bu dövrdən başlayaraq şeirdə əruzla yanaşı hecaya da yer verilir."[1]

Yeni şeir şəkillərinin şeirdə dil sadəliyinin tətbiqi ilə yanaşı, ictimai əhəmiyyət kəsb edən mövzuların yer alması Tənzimat poeziyasında diqqəti cəlb edən başlıca xüsusiyyət idi.

Bu dönəmdə Hamid qafiyəsiz şeir yazmaq təşəbbüsü ilə çıxış edir. Başqa müəlliflər tərəfindən də çarpaz qafiyəli şeirlər yazılır, sərbəst şeirə üstünlük verilir. Ə.Hamidin və R.Əkrəmin bir çox şeirləri buna misal ola bilər. Tənzimat şeirində məzmunun dəyişməsi ilə şeirin ruhunda bir genişlənmə müşahidə olunur. İctimai-siyasi mahiyyətli mövzular yeni şeirdə yeni məzmun yaradırdı.

*Devlete Avrupa emniyet edermi heyhat,*
*Lütfedip eylemese arzi kefalet ol zat,*
*İşte lazımsa bu davaya delilü-isbat,*
*İtibarıle yaptı nice istikrazat*
*Yoksa maliye işinde görülürdü işkal.*

[1] *Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, "Apostroff", 2014, s.126-127*

“Zəfərnamə”dən gətirilən bu parça bir qədər əvvəl qeyd etdiyimiz kimi Ziya Paşada hürriyyət və cümhuriyyət dəyərlərinin zənginləşməsini göstərir.

Tənzimat şeirində təbiət elementləri sırf real təbiət hadisəsi fonunda əksini tapdığı üçün klassik şeirin bədii şərtilik üslubundan ayrılırdı. Məsələn, təkkə şeirinin nümayəndəsi Əziz Mahmud Xudayinin (1541-1628) bir şeir parçası ilə Tənzimat şeirinin nümayəndəsi R.Əkrəmin şeirinin müqayisəsində fərqləri asanlıqla görmək olar:

*Yeter oldun fena bağında nalan*
*Yürü bülbül yürü dost illerine.*
*Edip tavusı kudsilerle seyran*
*Yürü bülbül yürü dost illerine.*
*(Əziz Mahmud Xudayi)*
*Dağıldıkca sürü dağa, bayıra,*
*Kelbe tefviz eder hirasetini.*
*Atf içün kalbe çeşmi dikkatini*
*Uzanır kendi de güzel çayıra*
*Bir zaman öylece durur düşünür.*
*(Recaizadə Əkrəm)*

Araşdırmalar göstərir ki, Tənzimat şeiri tam mənada, əlahiddə olaraq nə Qərb, nə də Şərq nümunəsi idi. Burada Avropa yönü aparıcı olsa da, Şərq ənənəsinin yaşaması, Qərb şeiri ilə paralellik fakt idi.

Lakin Tənzimatın sonrakı dönəmlərində fəlsəfi-romantik üslubun aparıcılığı əsas yer tutmağa başladı. Ziya Paşa başda olmaqla bir çox şairlər Tənzimat şeirinin bu mərhələsində dünya, varlıq, ölüm, axirət və s. mövzuları fəlsəfi anlamda oxucuya çatdıra bildilər.

1860-1895-ci illər arasında ədəbi fəaliyyətləri ilə seçilən Tənzimatçılar ideoloji-estetik yanaşmalarına görə 2 qrupa bölünmüşdülər. İ.Şinasi, N.Kamal, Z.Paşa və s. təmsil olunduqları və fəaliyyətləri 1860-1880-ci illəri əhatə edən sənətkarlar “sənət cəmiyyət üçündür” prinsipini əsas götürürdülər. Bu o demək idi ki, həmin ədəbi məktəbin nümayəndələri N.S.Banarlının dediyi kimi “edebiyatı daha çok siyasi bir heyata sevketmiş ve edebi faaliyetlerini memleketin siyasi hayatıle birleştirme yolunu seçmişlerdi. Kısaca edebiyat kadar da siyaset yapmışlardı”[1]. “Sənət sənət üçün” prinsipinə əməl edən R.Əkrəm, Ə.Hamid, P.Sezai və ədəbi məktəbinin nümayəndələri isə sənətin estetik dəyərlərini əsas tutur,

[1] *Banarlı N.S. Resimli türk edebiyatı tarihi, II cilt. İstanbul, 1971, s.915*

ideologiyaya meyli azaldırdılar. Lakin bütün hallarda Tənzimat Türkiyə türk ədəbiyyatının elə bir mərhələsidir ki, bu mərhələdə ədəbiyyat üçün forma, məzmun və ideya yeni dəyərlər qazana bildi.

I fəslin ikinci yarımfəsli **"Yeni dövr türk poeziyasında ənənəvi və modern şeirin qarşılıqlı əlaqəsi, bədii estetikası, mövqe problemləri"** adlanır. Bu hissədə qeyd olunur ki, ədəbiyyatda ənənə minilliklər boyu yol gələn, eyni zamanda dəyişən ədəbi ifadə və ədəbi düşüncələrin təzahürüdür. Belə demək mümkünsə, ədəbi mirasdır. Nəzərə alsaq ki, ənənə bir növ keçmiş anlamındadır, onda modernizm də "indi" anlamına uyğun gəlir. Lakin bəzən ənənə "indi" (modern) ilə "keçmişin" (ənənə) sintezində də mövcud ola bilir. Ənənə daha çox xalq və divan ədəbiyyatlarının daxilində öz mövcudluğunu qoruyub saxlaya bilir. Hətta çağdaş zamanda belə ənənəyə qayıdışın bədii nümunələrinin müşahidə olunması bu prosesin ədəbi-tarixi funksiyada olmasını təsdiqləyir. Ancaq Türkiyə türk ədəbiyyatında Tənzimatla Cümhuriyyətə qədərki ədəbi prosesdə modernizmin ənənəni üstələdiyinin şahidi oluruq. Xüsusilə İ.Şinasi, Ə.Hamid, N.Kamal, Ziya Paşa, Midhəd Əfəndi, Əli Suavi, R.Əkrəm, Muallim Naci, Nəbizadə Nazim, Tofiq Fikrət, Cənab Şahabeddin, Süleyman Nazif, Rza Tofiq, M.Ə.Yurdaqul, Emin Bülənd və b. sənətkarların bədii yaradıcılıqlarında, eyni zamanda ədəbi-nəzəri görüşlərində ənənə və modernləşməyə münasibət aydın şəkildə görünür. Qeyd edək ki, XIX əsrdən başlayaraq Türkiyə ədəbiyyatına Qərb təsiri bir sistemin – daha doğrusu Avropa mədəniyyət və düşüncə sisteminin təsiri idi. Təbii olaraq bu sistemin qaynağı XVIII və XIX əsrlər Fransa bədii-estetik və fəlsəfi düşüncəsi hesab edilirdi. Qeyd edək ki, Avropa fəlsəfi-estetikasının böyük nümayəndələri olan Montesko, Fontenello, Volter və başqalarının fikirləri XIX əsrdə Türkiyədə genişlənməkdə olan modernizmin əsasını təşkil edirdi. Yuxarıda qeyd olunduğu kimi həm ənənəvi, həm də modern ədəbiyyat öz bədii sənət qanunauyğunluqları, daha doğrusu sənət missiyası etibarilə birləşsələr də, bir-birilərini inkar və ya nisbi tənqid baxımından həm də ayrı-ayrı mövqelərdə dayanırdılar. Bizə elə gəlir ki, dərəcəsindən asılı olmayaraq bu mövqe qarşıdurmasının özündə bir qanunauyğunluq vardır. Çünki, ənənənin qaynağı təsəvvüf, modernizmin qaynağı isə Avropa estetik dəyərləridir. Bu mənada Avropa şeir ideyaları ilə Şərq şeir ideyaları arasında yeri gəldikdə bəzi fərqləndirici əlamətləri görməmək mümkün deyil. Çünki Şərq ənənəviliyin, Qərb isə müasirliyin simvoludur. Konkret desək, Şərq poeziyası insanı kamilləşdirmək məqsədi güdürsə, Qərb poeziyası cəmiyyəti təkmilləşdirmək missiyasını məqsədə

çevirir. Göründüyü kimi, insanşünaslıq hesab edilən ədəbiyyatın Qərb və ya Şərq meyilli olmasından asılı olmayaraq insan amili istənilən dövrlər və istənilən ədəbiyyatlar üçün vacib əhəmiyyətli və gərəkli olmuşdur.

XIX əsr Türkiyə Tənzimat ədəbiyyatında problemin qoyuluşu, problemə münasibət yeni bədii dəyərlərə söykənməyə başladı. Bu sırada hürriyyət, dövlət, millət, ədalət, mədəniyyət, dil, insan, ağıl və s. dəyərlər üstünlük təşkil edirdi. XIX əsr Tənzimat ədəbiyyatına qədərki türk şeiri XVIII əsrdə Seyid Vehbi, Nedim, Rasih, Şeyx Qalib, XIX əsrdə Əmrah, İzzət Molla, Akif Paşa və b. sənətkarların simalarında öz inkişafını təmin etsə də, yavaş-yavaş daxili dəyişməyə ehtiyac duyur, qapılarını yeniliyin üzünə açmaq məcburiyyətində qalırdı.

Tənzimata qədərki Türkiyə klassik poeziyasının özünəməxsus xüsusiyyətləri vardır. Məlumdur ki, klassik türk poeziyasına ərəb və fars poeziyasının böyük təsiri olmuşdur. Türklərin İslamı daha sonralar qəbul etmələri istər-istəməz onların poeziyasında islami dəyərlərin əksinin gecikməsini şərtləndirir. Bu mənada klassik türk poeziyasında ərəb və fars ədəbiyyatının təsiri İslami təsirdən qabağa düşür. Lakin türklər İslamı qəbul etdikdən sonra onların ədəbiyyatında həm forma, həm də ideya-məzmun baxımından yeni cəhətlər yaranmağa başladı. Amma bu prosesdə İslami xüsusiyyət öndə olsa da, poeziyada bir türk özünəməxsusluğu mövcud idi. C.Rumi (XIII əsr), S.Vələd (XIII-XIV əsrlər), Y.İmrə (XIII-XIV əsərlər), Baki (XV əsr), Nefi (XVII əsr), Nabi (XVII əsr), Nedim (XVIII əsr), Şeyx Qalib (XVIII əsr), İzzət Molla (XIX əsr), Əndərunlu Vasif (XIX əsr) və b. türk poeziya bayraqdarları istər klassik, istərsə də yeni dövrdə ənənəvi şeirin mövzu və forma baxımından inkişafını təmin etmiş, poeziyanın şərti, romantik, realist üslubda ənənə dövriyyəsini qura bilmişlər.

Avropa modern ədəbiyyatının Türkiyədən başqa digər ətraf regionlara da təsiri danılmazdır. Bu sırada Azərbaycan ədəbiyyatına təsirini də yaddan çıxartmaq olmaz. Əlbəttə, bu təsir Türkiyə vasitəsilə reallaşırdı. Keçən əsrin əvvəllərində Leninqrad Şərq Dilləri İnstitutunun tələbəsi olan Əli Nazim "Türk yurdu" dərgisində çap etdirdiyi "Yeni Azəri ədəbiyyatı haqqında" adlı məqaləsində belə yazırdı: "Yeni Azərbaycan ədəbiyyatının bu mərhələsinə Ali bəy və yaxud "Füyuzat" devrəsi deniliyor... Bu cərəyan üçün ilham mənbəyi artıq Axundovdakı gibi halk həyatı, görənəği deyil,

bəlkə hər türlü halkçılıq və demokratizmdən arı bulunan Osmanlı Tənzimat və Sərvəti-fünun ədəbiyyatı idi..."[1]

Tənzimat, Sərvəti-fünun, Cümhuriyyət dönəmlərində ənənə və modernist ədəbiyyatlara, dilə ikili münasibətin mahiyyətində yeniliyi və ənənəni müdafiə edən iki müxtəlif qrupların ədəbi mövqe və baxışları dayanır. İ.Şinasi ilə başlayan Qərbləşmə hərəkatı, elə həmin andan etibarən ənənəvi ədəbiyyatın "olum ya ölüm" müzakirəsinə start verdi. Namiq Kamal, Tofiq Fikrət, Xalid Ziya və başqaları modern şeirin tərəfinə keçməklə ənənəvi şeiri təqlidçi şeir adlandırmaqdan çəkinmirdilər. Əslində klassik şeirdən çox şey əxz edən Cənab Şahabəddin ənənəvi şeir formasını həm dilinə, həm də məzmununa görə tənqid edirdi. O, klassik poeziyanın vətəndaş sözləri olan "gül-bülbül", "bəlayi-can", "şam-pərvanə", "könül-can" və s. ifadələrinə tənqidi yanaşır, bu sözlərin yaratdığı mənanı şeirin məzmununa zəiflik gətirdiyini bildirir.

Ancaq bir maraqlı məqam da odur ki, eyni şəxsin divan ədəbiyyatına tənqidi münasibətlə yanaşı, onu təqdir etməyin paralelliyi də diqqəti cəlb edir. Bu paralellik əslində ziddiyyətli yanaşmanı əks etdirir. Məsələn, Ziya Paşa bir tərəfdə xalq şeirini əsl türk şeiri hesab edir, divan şeirini Osmanlı şeiri hesab etmir, "Harabat" müqəddiməsində isə xalq şeirini "eşşək anqırması", əsl türk şeirinin divan şeiri olduğunu qeyd edir. N.Kamalın da ədəbiyyat baxışlarında bu cür ziddiyyətlərin olduğunu görmək çətin deyil. Yəni "əski ədəbiyyatda tarixi hadisələr gerçəyə uyğun deyil, anlaşılma çətindir", deyimləri ilə "əski ədəbiyyat gözəllikləri diqqətdən yayınmır" ikili yanaşma N.Kamal ədəbi-nəzəri baxışlarında ziddiyyət kimi qiymətləndirilə bilər. Hesab edirik ki, İ.Şinasinin, Sami Paşazade Sezainin və digər şəxslərin fikirlərində olan ziddiyyətlər bir qədər yuxarıda qeyd etdiyimiz kimi "geyimi və şüurunu" Avropasayağı tələsik dəyişən insanların beşiyi başında durduqları modern ədəbiyyatın tətbiq və təbliğini genişləndirməkdən, bütün ədəbi cəbhələrdə mövqe nümayiş etdirməkdən irəli gəlirdi.

Artıq yeni yaranan modern ədəbiyyat iki mühüm vəzifənin həlli yollarına çalışırdı. Birinci yeni dil, yeni forma, vəzn məsələsi və s., ikinci isə yeni insan və onun taleyi, həyatda yeri və rolu, yeni ideya, yeni hikmət və s. problemlərin həm ənənə və novatorluq, həm də insan və cəmiyyət kontekstində həllinin başa çatdırılması olduqca vacib idi. Modern türk

---

[1] *Nazim Ə. "Yeni Azəri ədəbiyyatı haqqında". "Türk yurdu", №31, 32 təmmuz (iyul) 1927, səh.23*

ədəbiyyatı yeni dəyərlər içində ağlı və ədaləti daim ön cərgədə saxlayırdı. Qeyd etdiyimiz kimi ənənəvi klassik ədəbiyyatda ağıl – qəlb və könül anlamında işlənirsə, modern ədəbiyyatda isə ağıl – insan yeni kainat, yeni baxış, yeni münasibət funksiyasında təqdim edilir. Modern şeirin ilk böyük nümayəndələrindən olan Şinasi "insanlarımızın dünyamızdakı hakiki yerlərini almalarını istiyordu. Bu da ancak akılla mümkündür. Filhahika Şinasinin bir çok şiirlerinde "akıl" kelimesi geçer. Bilgi akılcıdır ve akılcı (yəni rasionalist – müəllif) olmalıdır."[1] Şinasiyə görə haqqın, ağlın muradı hürriyyətdir. Hürriyyət insanın ağıl vasitəsilə qazandığı nemətdir. Lakin insan ağlı hər şeyi qavraya bilməz. Şinasi buna misal kimi insan ağlının Allah möcüzələrini qavramaqda acizliyinə işarələr edir. Lakin ağıl insanın həm hürriyyətidir, həm də onun iradəsidir. Şinasinin aşağıdakı misraları bu fikri tam təsdiqləyir:

*Bu adlü hakika diyanet demiş kimi akıl*
*Takıldı nefsü hevanın boğazına zencir.*

Şinasidə ağıl və ədalət bir-birini tamamlayır. Şairə görə ədalət ağlın ixtiyarındadır. Ədalət insan ağlında "təcəlla" tapır. Şinasi bu fikirləri ilə ağıl, hikmət, qanun, hürriyyət və s. birləşdirərək xeyli irəli gedir və modern Avropa düşüncələrinin əsasını qoyan Fransız mütəfəkkirlərinin ideyalarından əhəmiyyətli dərəcədə faydalanırdı.

Tənzimat ədəbiyyatı dövründə köhnə ilə yeni arasında gedən mübarizə müəyyən mənada yeninin meydanda mövqeyini möhkəmləndirməklə başa çatdı. Ədəbi mübarizə meydanında İ.Şinasi, Ziya Paşa, Namiq Kamal, Recaizadə Əkrəm, Əbdülhaq Hamid, Muallim Naci, Sami Paşazadə Sezai, Nəbizadə Nazim kimi söz sahiblərinin bir-birilərini təqdir və ya tənqid edən fikirləri ədəbiyyatdaxili məsələlərin həllində əsas yer tutur. İstər ənənəvi ədəbiyyata baxışlarında Sami Paşazadə Sezai ilə Namiq Kamalın eyni mövqedə olması, istərsə bu məsələdə Recaizadə Əkrəmlə Muallim Nacinin əks tərəfdə dayanmaları, istərsə də digər Tənzimatçıların bu və ya digər mövqe nümayişləri ədəbiyyatdaxili çəkişmələrin zəruriliyindən və aktuallığından xəbər verirdi. Tədqiqatlar onu deməyə əsas verir ki, Avropayönlü yeni ədəbiyyat öz mövcudluğunu bərqərar etsə də, köhnəni yıxa bilməmiş, yeni və köhnənin paralelliyi ədəbiyyatın sonrakı mərhələlərində də öz varlığını mühafizə edə bilmişdir.

[1] *Tanpınar A.H. XIX asır Türk edebiyatı tarihi. İstanbul, "Yapı Kredi yayınları", 2006, s.187*

Dissertasiyanın II fəsli **"Tənzimat dönəmi ədəbi təmayüllər: forma, mövzu və ideya problemləri"** adlanır. Bu fəslin **"İbrahim Şinasi, Ziya Paşa, Namiq Kamal poeziyasının forma və məzmun xüsusiyyətləri: dildə sadələşmə tələbi, vətənçilik, millətçilik və hürriyyətçilik ideyaları"** adlı birinci yarımfəslində birinci nəsil Tənzimat ədəbiyyatının aparıcı sənətkarlarının yaradıcılıqları forma, məzmun və ideya problemləri daxilində təhlil olunur. Forma, mövzu və ideya baxımından XIX əsr Türkiyə türk poeziyasının öz inkişafını üç istiqamətdə davam etdirməsinin kökündə ictimai həyatda baş verən proseslərə bu və digər dərəcədə münasibət və yanaşma dayanırdı. Birinci bütünlükdə divan şeirini müdafiə edən, ikinci ənənəvi şeirin yalnız formasını saxlayan, üçüncü həm forma, həm də məzmun baxımından ənənəvi şeirdən uzaqlaşan bu üç istiqamətli ədəbiyyatın hansının əhəmiyyətli, hansının əhəmiyyətsiz olmasından asılı olmayaraq bu dövrdə poeziyanın bütün cəbhələrdə mübarizəsini təsdiqləyirdi. Əski poeziya qəliblərinə üstünlük verən Leşkofçalı Qalib, Əşrəf Mustafa Paşa, Yenişəhərli Avni, Hacı İbrahim Əfəndinin divan şeirinin qəliblərini saxlamaqla onu yeni məzmun keyfiyyətləri ilə dəyişən və ya şeirin həm forma, həm də məzmununu yeniləşdirən Ədhəm Paşa, İbrahim Şinasi, Sədullah Paşa, Ziya Paşa, Namiq Kamal, Əbdülhaq Hamid, Məhməd Əşrəf, Recaizadə Mahmud Əkrəmin və s. yaradıcılıqları ədəbi təmayüllərin bütöv bir mənzərəsini əks etdirmək baxımından xarakterikdir.

İbrahim Şinasi-Ziya Paşa-Namiq Kamal ədəbi mərhələsi adlanan Tənzimat ədəbiyyatının birinci nəsli (1860-1880) nümayəndələri arasında İbrahim Şinasinin (1826-1871) xüsusi yeri vardır. O, Avropasayağı yeni türk ədəbiyyatının yaranmasında, ədəbiyyatın dil, forma və məzmun baxımından yeni tələblərə uyğun formalaşmasında xidmətləri ilə fərqlənən ilk sənətkar hesab edilir. İbrahim Şinasinin dünyagörüş və yaradıcılığındakı Qərb təsirləri ilk növbədə dövrünün ictimai-siyasi prosesləri və aldığı təhsil ilə bağlı idi. Oxuduğu yeni üsullu məktəblərdə mövcud fransız təsirləri, Rəşad bəy adlı əsilzadədən fransız dilini öyrənməsi, sonra Fransa səfəri Şinasinin Avropa meylinin güclənməsində böyük rol oynadı. Bu təsirlərin nəticəsində Şinasi Avropadan bir mədəniyyət düşüncəsi dərsini ala bildi. Avropa modernizminin Lamartin və Renan kimi şəxsiyyətlərinin İ.Şinasiyə təsiri onun yeni düşüncə ilə silahlanmasında önəmli rol oynadı.

İ.Şinasinin həm bədii yaradıcılığı, həm də ədəbi-tənqidi görüşləri yenilik nümunələri sayılırdı. "Tərcümani-əhval" və "Təsviri-əfkar" qəzetləri Şinasinin bədii və ədəbi düşüncələrinin təbliğində mühüm rol

oynayırdı. İ.Şinasi ilk növbədə qəzetə təbliğatın vacib tərəfi kimi baxırdı. Şinasinin 1860-cı ildə "Tərcümani-əhval"a, 1862-ci ildə isə "Təsviri-əfkar"a yazdığı ayrı-ayrı müqəddimələrdə qəzetin millətin həyatında oynadığı rol xüsusi təqdir olunur.

Şinasi divan şeir şəkillərininə uyğun olaraq minacatlar, qəsidələr, qəzəllər və s. yazmışdır. N.S.Banarlının qeyd etdiyi kimi, Şinasinin şeirlərində divan şeir şəkilləri ilə müqayisədə heç bir yenilik olmasa da, hər halda o, zahiri dəyişikliklər yarada bilmişdir.

Maraqlı odur ki, Şinasi şeirdə dil ağırlığını pisləyən məqalələr yazsa da, ümumən divan ənənəsinə bağlanan şeirlərinin dilində sadəliyə tam şəkildə nail ola bilməmişdir. Məsələn, Şinasi "Eyler" rədifli şeirini Nəfinin eyniadlı şeirinə nəzirə yazmışdır. Hər iki şeirdə klassik şeir dilinin özünəməxsusluğu diqqət çəkir:

*Vakta ki, felek şekli-hilalın kamer eyler*
*Gün geçdiğini ömri beşerden haber eyler...*

*Hak yol aramak vacib edir akli selime*
*Tevfikini isterse Hüda rahber eyler*
*Mahrum ise tevfikin eger faidesinden*
*Ya aczini gördükcemi akıl zarar eyler. (Şinasi)*

*Sanman ki, felek devr ilə şamı seher eyler,*
*Nevakıanın akibetinden haber eyler*
*Bir düş gibidir hak bu ki mani de bu alem*
*Kim göz yumur açınca bu mikdar ile mühlet*
*Erbabı nice kesbi kemalü hüner eyler. (Nəfi)*

Şinasi şeirlərində elə beytlər var ki, onlar məna və ifadə gözəlliyi baxımından klassik ənənə tələblərinə uyğunluğu ilə seçilir.

Türkiyə ədəbiyyatında modernləşmə probemlərini araşdıran Niyazi Berkes qeyd edirdi ki, "Şinasi divan edebiyatının dilini ağır bulmakla eleştirirken kendisi de ağır bir dil kullanmıştır."[1] Lakin Niyazi Berkesdən fərqli olaraq, N.S.Banarlı, Ə.Kabaklı, A.H.Tanpınar və digər tədqiqatçılar Şinasinin "saf türkcə" və yaxud "xalq türkcəsində" şeir yazmasını təsdiqləyirlər.

Tənzimat ədəbiyyatının görkəmli siması olan Ziya Paşanın (1829-1880) poeziyası əski şeir ilə yeni şeir arasında gedən prosesleri əks etdirmək baxımından xarakterikdir. Onun yaradıcılığında forma divan

---

[1] *Berkes N. Çağdaşlaşma. İstanbul, "Yapı kredi yayınları", 2003, s.262*

şeirinə, məzmun aparıcılığı isə yeni ədəbi normalara uyğundur. Tənzimat ədəbiyyatında Şinasi ilə başlayan məzmun yeniliyi Ziya Paşada irəliyə doğru daha bir addım ata bildi. Ziya Paşada obraz bir xarakter keyfiyyətilə seçilməyə başladı. Ziya Paşa obrazlarının daxili aləm görüntüsü yeniliyin təzahürünə işarə idi. Ziya Paşa obrazın hiss və düşüncələrini psixoloji baxımdan çatdırmağa nail ola bildi. Əlbəttə, bu XIX əsrin II yarısında poeziya üçün tam yeni idi. Bu, bir tərəfdən Ziya Paşanın istedad və sənətdə özünüifadə bacarığının nəticəsi idisə, digər tərəfdən Ziya Paşanın üzv olduğu "Əncümani-şüəra" (1861) təşkilatının yeniləşmə, klassik zövq, forma və mövzu axtarışlarının təsiri ilə bağlı idi. Ona görə də Ziya Paşada hər şey realist hisslərlə romantik duyğuların, mistika ilə reallığın çarpaz və paralelliyində təzahürünü tapır. Ziya Paşa 1868-ci ilə yazdığı "Şeir və inşa" məqaləsində sənətin qarşısında duran məsələlərdən, xüsusi olaraq şeirin bu günkü məqsəd və vəzifələrindən bəhs açmışdır. Z.Paşanın poeziya görüşləri Osmanlı şeirinin həm dünəni, həm də mövcud durumu barədə kifayət qədər fikir formalaşdırmağa imkan verir.

Ziya Paşa yaradıcılığında divan şeiri, aşıq tərzi və Avropa ədəbi təsirləri mövcuddur. Bu onu göstərir ki, o, həm divan ənənəsinə, həm də modern tərzə bağlı olmuşdur. Düzdür, Ziya Paşanın klassikaya münasibəti birmənalı olmamışdır. Tədqiqat işinin I fəslində bu barədə söhbət açılmışdır. Yəni o, divan şeirinin üstünlükləri ilə yanaşı, onun qüsurlarından da bəhs açmış, hətta divan şeirini "eşşək anqırması" şəklində xarakterizə etmişdir. Əlbəttə, bu cür dəyərləndirmə onun sənət görüşlərində ziddiyyətli məqam kimi xarakterizə olunur.

Ziya Paşanın fəlsəfi-psixoloji, sosial, insan psixologiyası və s. ilə bağlı əsərləri, o cümlədən satiraları şairin Avropayönlü ədəbiyyatla bağlılığını təsdiqləyir. Onun "Tərkibibənd", "Tərcibənd" və "Zəfərnamə"si janrına görə mənzum əsərlərdir. Təbii olaraq bu əsərlər həm xarakterinə, həm də problemlərin qoyuluşu baxımından şairin divanına daxil olan şeirlərdən fərqlənir. Lakin adı çəkilən hər üç əsərin bir-birinə yaxın və bir-birindən fərqli cəhətləri vardır. "Tərcibənd" əsərində modern baxış və düşüncələr əsas yer tutur. 12 bəndlik bu əsərdə Ziya Paşa Şərq-İslam və Qərb fəlsəfi görüşləri müstəvisində insan və kainat problemlərinə münasibət bildirmişdir.

Dövlət, cəmiyyət və xalq problemləri isə Ziya Paşa yaradıcılığında yeniliyin təzahür formalarından biri kimi xarakterizə olunmalıdır. Şairin "Tərcibənd", "Tərkibibənd", "Zəfərnamə" və digər satirik ruhlu şeirlərində "zülmə giriftar olanlara", zalımlara münasibət bəzən açıq, bəzən də

üstüörtülü şəkildə ifadəsini tapır "Tənzimat dövrü türk satirik poeziyası içərisində Əbdülhəmid Ziya Paşanın satiraları xüsusi yer tutur. O, yaradıcılığının lap ilk dövrlərindən başlayaraq ictimai mövzulara meyl etmiş, öz qabiliyyət və bacarığı ilə ətrafındakıları heyran qoymuşdur."[1] Türk şeirinin yeniləşməsində böyük rol oynamış Namiq Kamal (1840-1888) təmsil olunduğu ədəbi nəslin (İ.Sinasi, Z.Paşa, Ə.Midhət) görkəmli nümayəndəsidir.

Avropa ədəbi mühiti N.Kamalın yaradıcılığına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. "Vətən, yaxud Silistrə", "Akif bəy", "Zavallı cocuq", "Gülnihal", "Cəlaləddin Xarəzmşah" və s. dram əsərlərinin "İntibah", "Cəzmi" adlı romanlarının yazılmasında təbii olaraq bu təsirin rolunu danmaq olmaz. N.Kamalın poeziyası isə Şərq və Qərb dəyərləri üzərində boy atmışdır. Tənzimat şeiri onun sayəsində yeni keyfiyyət və yeni istiqamət əldə etmişdir. Behcət Necatigilin sözləri ilə desək: "N.Kemal Tenzimat devrinin en gur sesli şairi, en önemli dava ve sanat adamıdır."[2]

N.Kamalın şeirlərini divan formatı, şəkil baxımından köhnə, ideya-məzmun etibarı ilə yeni və tam yeni tərzdə yazmasına görə üç qrupa bölmək olar. Birinci qrupa forma və məzmun baxımından yalnız divan tərzli, ikinci qrupa forma baxımından köhnə, məzmun baxımından yeni, üçüncü qrupa isə həm forma, həm də məzmun baxımından yeni olan şeirlər daxildir. Hər üç qrupda şair özünəməxsus şeirlər yazmış, müəyyən forma və ideyalar çərçivəsində fikirlərini aşılaya bilmişdir. N.Kamal şeirlərinin divan formatında əski şeir şəkilləri ilə yanaşı, klassik poeziyanın xəyal, təsəvvüf sistemi bir araya gəlir, sosial məsələlər arxa plana keçir. Onun Nafi, Nail kimi divan şairlərinə yazdığı nəzirələr əski şeir sahəsində qələmə aldığı əhəmiyyətli nümunələrdən hesab edilir. Bu şeirlərdə təsəvvüf ruhu üstünlük təşkil edir.

Əski şeirlə modern şeirin paralelliyi N.Kamal yaradıcılığının ikinci mərhələsində müşahidə olunur. Bu mərhələdə şair ənənə və novatorluq prinsipləri daxilində istər köhnə, istərsə də yeni şeirin tələblərinə cavab verəcək nümunələr yaratmışdır. Ancaq diqqətlə izlədikdə bu cür şeirlərdə qərb təsirinin üstünlüyü daha çoxdur:

*Aksin ki olur cilvenüma çeşmi terimden*
*Dünya tutuşur berki şuayi nazarımdan*

---

[1] *Abıyev A. Türk ədəbiyyatında satira. Bakı, "Elm", 1991, s.125*

[2] *Necatigil B. Edebiyatımızda isimler sözlüğü. İstanbul, "Varlık yayınları", 1999, s.264*

*Allah için ol zevk ile terk et vereyim can*
*Tiri nigehi hışmını alma cigerimden.*

Qərb təsiri N.Kamal yaradıcılığında əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Qərbdən gələn ədəbi və ictimai təsir N.Kamal poeziyasına yeni forma və yeni ruh bəxş etmişdir. Ədəbiyyatşünaslar tərəfindən qəbul edilmiş ümumi fikir belədir ki, N.Kamal Əbdülhaq Hamiddən sonra türk şeirini şəkil baxımından yeniləşdirmiş böyük sənətkardır.

Bu mərhələdə şair əruz vəzni ilə yanaşı heca vəznində də şeirlər yazır, şeirin müasir tələblərini ödəyən normaları tətbiq edirdi. Bu tip şeirlərin dili sadəliyi və əcnəbi tərkiblərdən uzaqlığı ilə seçilirdi.

N.Kamalın yeni mərhələdə ən böyük uğurlarından biri də şeirin gətirdiyi yeni ideya və məzmunla bağlıdır. Klassik ədəbiyyatın ölçü və məna-ideya dəyərlərindən fərqli olaraq şair gerçək həyat və yeni baxış bucağında şeirlərinə ictimai don geyindirə bildi. Onun eşq və təbiət şeirlərini vətən, millət, hürriyyət, məşrutə və s. ideyalı şeirlər əvəzlədi. Yəhya Kamal demişkən N.Kamal "meydan adamı"na çevrildi. Yurdsevərlik, vətənpərvərlik sənətində ilk sıralardan birində dayandı. Yaradıcılığında qərbləşmə modeli dursa, ruhunda türk millətçiliyi dayanırdı:

*Amalımız, efkarımız ikbali vatandır*
*Ser-haddimize kale bizim haki bedendir*
*Osmanlılarız zinetimiz kanlı kefendir*
*Gavgada şehadetle bütün kam alırız biz*
*Osmanlılarız can veririk nam alırız biz.*

Namiq Kamalda osmanlıçılıq ideyaları milliyyətçiliyin, türkçülüyün başqa bir formada təzahürüdür. Təbii olaraq bunun kökündə siyasi proseslərin təsiri dayanır.

N.Kamalda islamçılıq həm mənəvi, həm də siyasi səciyyə daşıyır. Osmanlı dövlətinin tərkibində bütün müsəlmanların mənəvi-dini birliyini yaratmaq ideyası N.Kamal poeziyasında öz əksini tapa bilir. Qeyd edək ki, islamçılıq Osmanlı dövlətində 1870-ci ildən sonra qəbul edilmiş siyasi xətt idi. Bu islam ölkələrinə qarşı çevrilən katolik və provaslavçılığın yaratmış olduğu dini cərəyanlara cavab olaraq meydana gəlmişdi. N.Kamal İslam birliyi ideyasında bir şair olaraq mənəvi tərəfə daha çox önəm verirdi. O, dini janrlarda yazdığı şeirlərində yenə də əsas olaraq vətəni önə çəkir.

N.Kamalın formanın əski, mənanın, ideyanın isə yeni olduğu şeirləri modern şeir tipinə keçidin nümunələri sayılır. N.Kamal poeziyasında zülmə etiraz hürriyyətçilik, məşrutəçilik ideyaları ilə bağlanır.

Çünki bu ideyalarda insan haqları, ədalət, qanun və s. əsas yer tutur ki, burada zalımın zülmünə yer qalmır. Zülm ilə haqq, ədalət, qanun həmişə əks mövqedə dayanır, bir-birinə qarşı barışmazlıq nümayiş etdirirlər. Hürriyyət ideyalarına görə insan yaşamalıdır və haqlarını tələb etməlidir. Məşrutəçilikdə də insan yaşamalıdır və fikirlərini sərbəst ifadə etməlidir. Zülm isə bunların əksinə olaraq hürriyyətin, məşrutənin məhvini istər. Şair zülmün bir buz kimi əriyəcəyinə inam nümayiş etdirir.

*Ne mümkün zülm ile bidad ile imhayi hürriyyet,*
*Çalış idraki kaldır muktedirsen ademiyyetten.*

N.Kamalın "Hürriyyət qəsidəsi", "Vətən şərqisi", "Vətən türküsü", "Vətən mərsiyəsi", "Hilali Osmaniyyə", "Bir mühacir qızının istibdadı" və s. kimi poeziya nümunələri Tənzimat ölçüləri daxilində yeni forma və yeni ideya çalarları ilə fərqlənirdi.

II fəslin "**Recaizadə Əkrəm, Əbdülhaq Hamid, Sami Paşazadə Sezai ədəbi məktəbi. Qərb ədəbi-estetik prinsiplərinin üstünlüyü"** adlı ikinci yarımfəslində ikinci nəsil Tənzimat şairlərinin yaradıcılıqları təhlil obyektinə çevrilmişdir. Bu yarımbaşlıqda qeyd olunur ki, Recaizadə Əkrəm, Əbdülhaq Hamid, Muallim Naci və Sami Paşazadə Sezai isə Tənzimat ədəbiyyatını yeni bir istiqamətə yönəltdilər. Tənzimat ədəbiyyatının ikinci dövrünün sənətkarları adlanan bu böyük ədəbi şəxsiyyətlərin ədəbiyyat meydanına gəlməsi ilə "sənət sənət üçündür" fikri daha da ön plana keçməyə başladı.

Dissertasiyanın bu hissəsində göstərilir ki, Recaizadə Əkrəm, Əbdülhaq Hamid və Sami Paşazadə Sezainin yaratdığı ədəbi məktəb əvvəlkilərdən fərqlənirdi. Onlar hər cür siyasi fikri bədii ədəbiyyatdan uzaq tutmağa çalışırdılar.

Recaizadə Əkrəm (1847-1914) Türkiyə ədəbiyyatında təkcə qiymətli əsərlər yazmış şair, dramaturq, nasir kimi yox, eyni zamanda gənc nəsillərə ədəbiyyatı öyrədən bir ustad kimi də tanınmışdır. Onun bədii əsərləri ilə yanaşı, ədəbi-nəzəri görüşləri, Qərb ədəbi modelini müdafiə etməsi türk ədəbiyyatının yeni bir istiqamət almasına səbəb olmuşdur.

Yaradıcılığa şeir yazmaqla başlayan Recaizadə Əkrəmin şeirlərini diqqətdən keçirərkən o dövrün bir sıra sənətkarları kimi onun yaradıcılığında da bir neçə meylin kəsişdiyini aydınca görmək olur. "Onun manzum və mensur eserlerini vücuda getiren dil, sanat və söyleyiş unsurlarında Divan şiirinin devamı halk söyleyişinden akisler, Mahallileşme Cereyanı serpintileri və bunların hepsinin üstünde gibi görünen bir Avrupa (fransız)

edebiyatı tesiri vardır."[1] Ustadları Ziya Paşa və Namiq Kamal kimi onun da ilk qələm təcrübələri Divan şeirinin ciddi təsiri altında yazılmışdır. R.Əkrəmin vəsf etdiyi məhəbbət dünyəvi deyil, divan ədəbiyyatı nümunələri kimi təsəvvüfi eşqdir. Bu tipli şeirlər şairin "Nəğmeyi-səhər" (1871) kitabında toplanmışdır. Bu kitabdan sonra yazdığı "Yadigari-şəbab" (1873) kitabında artıq həm mövzu, həm də forma baxımından yeni görünən şeirləri diqqət çəkməyə başlayır.

"I Zəmzəmə" (1883) kitabında toplanan şeirlər artıq şairin yenilik axtarışlarının nəticəsi kimi meydana çıxmışdır. Xüsusilə də "Bahar" və "Çiçək" şeirləri qafiyə baxımından poeziya üçün yeni idi. Bu şeirlərdə mövzu gözəlliyini yaratmaq üçün şair ən çox təbiət mövzusuna üstünlük verir. Şeirlərinin böyük əksəriyyətində təbiəti başlıca mövzu kimi seçən şairə görə təbiət sonsuz bir qaynaqdır.

*Güzeran eyleyip zaman-ı hazan,*
*Yine alemde nev-bahar olmuş,*
*Zülmet-i şeb geçip nehar olmuş;*
*Başlamış handeye zemin ü zaman*

"Bir quş" şeirində övlad itirən dərdli ata tənha qalmuş kiçik bir quşla öz taleyi arasında yaxınlıq görür, onun kimi tənha olduğunu söyləyir. Şair dərdli atanın hisslərini yeni bir tərzdə dilə gətirir. Quşa müraciətdə şairin qəlbindəki dərin kədər üzə çıxır, yaşamağın onun üçün bir işgəncəyə çevrildiyi duyulur. Şair "Ah Nijad" şeirində də sevimli oğlu Nijadın vəfatından duyduğu dərin kədəri dilə gətirir. Eyni mövzunu şair "Şövqü yox" şeirində də davam etdirir, həyatdan artıq heç bir zövq almadığını incə bir üslubla səsləndirir.

R.Əkrəmin ədəbi-tənqidi görüşləri onun bədii yaradıcılığı qədər əhəmiyyətə malikdir. Belə ki, onun ədəbiyyat barədə söylədikləri yeni tələblər daxilində ədəbiyyatın inkişafına müəyyən mənada təsir göstərirdi. R.Əkrəm yazırdı: "Hər şeirin vəzn və qafiyəli olması lazım gəlməz. Necə ki, vəznli və qafiyəli olan söz şeir deyil".

"Yaxşı bir üslub necə olmalıdır?" sualı ətrafında düşünən sənətkar "Təlimi-ədəbiyyat"da bunu açıqlamağa çalışır və altı qaydanın vacibliyindən söz açır: Anlaşıqlılıq, təbiilik, ahəngdarlıq, məzmun ilə forma bitkinliyi, düzgün, doğru və dəqiq ifadə. R.Əkrəm fikirlərini quru bir nəzəriyyə kimi ortaya atmırdı, həm də öz şeirlərində bu tələblərə əməl edirdi.

---

[1] *Banarlı N.S. Resimli türk edebiyatı tarihi, II cilt. İstanbul, 1971, s.917-918*

Tənzimat ədəbiyyatının ikinci dövr sənətkarlarından sayılan Əbdülhaq Hamid (1852-1937) Türkiyə türk ədəbiyyatının yeniləşməsi sahəsində ən böyük xidmətlər göstərmiş sənətkarlardandır. İ.Şinasi və N.Kamal tərəfindən formalaşdırılmış yeni bir ədəbi mühitdə yazıb-yaratmağa başlayan şair ədəbiyyata yeni bir yön verməyə də nail olmuşdur.

Hamidin ilk şeirləri "Divanəliklərim, yaxud Bəldə" məcmuəsində toplanmışdır. Elə yaradıcılığının ilk illərindən yazdığı şeirlər həm forma, həm də üslub baxımından tamamilə yeni idi. Bu məcmuədə toplanan şeirlər ("Vil Davri", "Site Sante", "Ötöy", "İsketin", "Vantaduz", "Rönesans", "Teatr Franse", "Perlaşez", "Yine o", "Ser Jermen", "Engen", "Randevular", "Şanzalize", "Mezon Lafayet", "Robenson", "Monmoransi") əsasən şairin Fransada – Parisdə yaşadığı illərin xatirələri, Parisdəki əyləncə mərkəzləri təssüratları və özünün məhəbbət macəraları əsasında yazılmışdır.

Təbiətə fəlsəfi münasibət "Səhra" şeirlər toplusunda daha çox diqqət çəkir. "Hoş-nişinan", "Belde-güzin", "Mutekif", "Mutehassir", "Feragat-kar", "Mütesadif", "Nevmid", "Mazi", "Davet", "Ülfet" adlı 10 şeirdən ibarət olan bu topluda təbiət qüsursuz bir məkan kimi təsvir olunur, təbiətlə qucaq-qucağa yaşayan insanların xoşbəxt ola biləcəkləri dilə gətirilir.

Mövzu baxımından yeniliyi ilə fərqlənən "Səhra" şeirlər toplusu həm də forma baxımından da Türkiyə ədəbiyyatı üçün çox yeni idi. Sözlərin qafiyələnməsi və misraların düzülüşü "Səhra" məcmuəsi şeirlərində xüsusilə diqqət çəkirdi.

Əbdülhaq Hamidin bədii cəhətdən daha mükəmməl sayılan şeirləri "Bunlar odur" (1885) şeirlər toplusunda toplanmışdır. Burada çox sevdiyi həyat yoldaşının vəfatından duyduğu dərin kədər və iztirablar əsas yer tutur. "Haceri-i muteharrik", "Gayibe", "Zühre-i Hindi", "Meşcere-i yar", "Gurbette vatan" kimi şeirlərində şairin həyat yoldaşını itirdikdən sonra duyduğu dərin kədər və ətrafındakı xoşbəxt cütlüklərin məsudluğuna qibtə hissi və bunun şairin əhval-ruhiyyəsində doğurduğu ziddiyyət əsas xətti təşkil edir. Şair bəzən tanrıya üsyan edir, bunun ona qarşı haqsızlıq olduğunu dilə gətirir, bəzən də onun taleyini yaşayan insanların olduğunu dərk edib taleyi ilə barışır.

Ə.Hamidin "Məqbər" əsəri başdan-başa ölüm notları üzərində yazılmışdır. Şairin həyatında baş vermiş faciə onun bütün varlığını bürüyür, ona dünyanın mənasızlığını dərk etdirir. Həyat yoldaşının ölümü qarşısında mənən sarsılan şair emosional şəkildə üsyan qaldırır. Emosiyalara qapıldığı

üçün Allaha qarşı etirazını belə gizlədə bilmir. Ölümün Tanrı həqiqəti və payı olduğunu dərk etməyə çətinlik çəkir. Ona görə də poemanın ilk misraları şairin ölüm faktı qarşısında psixoloji sarsıntı və hazırsızlıqlarının əyani nümunəsi kimi səslənir.

Şair "Məqbər" poemasındakı ideyalarını, ölüm və həyat haqqında düşüncələrini "Ölü" və "Həclə" poemalarında da dilə gətirir. Tanpınarın dili ilə desək, "Ölü" "Məqbər"in daha sakit bir davamıdır". Bu əsərlərlə yaxından tanışlıq göstərir ki, burada gərgin ruhi sarsıntılar keçirən şair daha sakitdir, acı gerçək olan ölümü dərk etməyə, onu qəbul etməyə çalışır.

Əbdülhaq Hamidin türk poeziyasındakı yeri və mövqeyini qiymətləndirərkən onun şeir və poeziya haqqındakı düşüncələrinə nəzər yetirmək olduqca vacibdir. Onun şeir və poeziya haqqındakı düşüncələri "Məqbər" əsərinin müqəddimə hissəsində daha aydın şəkildə görünür. Onun fikrincə, şeir içdən gəlməli, heç bir məcburiyyətlərə tabe olmamalı, fərdi hisslərə əsaslanmalıdır. "En güzel, en büyük, en doğru şiir, bir hakıkat-ı müdhişenin tazyiki altında hiçbir şey söylememektir. İnsan, bazı kerre, hatırına gelen bir hayali tanıyamaz, o kadar güzeldir. Kalbinde doğan bir hissi bulamaz, o kadar derindir. Bu acz ile feryad koparır, yahud pek karanlık birşeyler söyler, yahud hiçbir şey söyliyemez de, kalemini ayağının altına alıp ezer. Bunlar şiirdir."[1] Ə.Hamid gözəl şeirin üç şərtinin olduğunu söyləyir: forma baxımından qüsursuzluq, təbiiliklə yanaşı bədii dəyərinin yüksək olması və həddindən çox təmtəraqlı ifadələrin işlədilməməsi. Bu tələblər onun yaradıcılığının şah əsəri sayılan "Məqbər" poemasında yerinə yetirilir. Şeirin əsas materialının dil olduğunu söyləyən şair dilin sadələşməsini əsas tələb kimi irəli sürsə də, vəzn və qafiyə məsələləri ilə daha çox məşğul olmuşdur. "Mənim üslubum yoxdur, üslublarım vardır" deyən şair hər əsərində yeni bir üslub yaratmağa çalışmış, klassik ədəbiyyatın dərin kökləri üzərində yeniliklər etməkdən çəkinməmişdir.

Tənzimat dövrünün ikinci nəslinə mənsub olan Sami Paşazadə Sezai də (1859-1936) Əbdülhaq Hamid və Recaizadə Əkrəm kimi bütün yaradıcılığı boyunca Namiq Kamalın ideyalarını müdafiə etmişdir. Siyasi görüşləri yaradıcılıqlarından uzaq tutan bu iki şəxsdən fərqli olaraq Sami Paşazadə Sezai siyasi görüşlərini də açıqca söyləməkdən çəkinməmişdir.

---

[1] *Tarhan A.H. Bütün şiirleri 2. İstanbul, "Dergah yayınları", 1982, s.22*

1886-1901-ci illər onun yaradıcılığının əh məhsuldar dövrüdür. Bu illərdə o, “Şir” pyesini (1887), “Sərgüzəşt” romanını (1888), “Kiçik şeylər” hekayəsini (1892) və s. əsərlərini yazmışdır.

Sami Paşazadə Sezai Tənzimatın ikinci dövrünün görkəmli sənətkarlarından biridir.

Sonralar Milli ədəbiyyat cərəyanının başlaması ilə türk dilinin sadələşməsi uğrunda gedən mübarizəyə qoşulan Sami Paşazadə Sezai “Bir məktub” və “Lisan” adlı yazılarında bu prosesdə Mehmed Əmin Yurdaqulu dəstəklədiyini xüsusi vurğulamışdır.

Həm Şərq, həm də Qərb ədəbiyyatını mükəmməl şəkildə mənimsəyən sənətkar “sənət sənət üçündür” ideyasını həmişə müdafiə etmişdir. Şeirlərində romantizmə, nəsr əsərlərində isə realizmə meyl etməsi yaradıcılığında maraqlı bir sintezin yaranmasına səbəb olmuşdur.

İncə bir ruha sahib olan Sezai gözəl lirik şeirlər yazmışdır. Onun xüsusi ilə “Pek severim” şeiri müasirlərinin diqqətini cəlb etmiş, hətta Tofiq Fikrət “Rübabi-şikəstə”sində yer alan “Eylül” adlı səkkiz misradan ibarət mənzuməsinə həmin şeirdən dörd misra da əlavə etmişdir.

Sezainin yaradıcılığında poeziya nümunələri azlıq təşkil etsə də, onun poeziya irsi Tənzimat aspektində ənənə və novatorluq prinsipləri tələblərini ödəyə bilər. Yəni Sezai yeni şeir nümunələrini yaradarkən ənənənin rolunu inkar etmir, lakin yeni şeirin tələblərinə daha çox önəm verir. İlk növbədə Sezainin şeir dili “saf türkcə” tələblərinə meylli idi. Maraqlıdır ki, Sezai şeirdə mənanın ifadə edilməsində də, onun anladılmasında da türk dili üstünlüyünü xüsusi qeyd edirdi.

Tənzimatın ikinci dövrünün bu üç görkəmli sənətkarı – Recaizadə Əkrəm, Əbdülhaq Hamid və Sami Paşazadə Sezai yeni bir yola qədəm qoymuş türk ədəbiyyatına yeni bir istiqamət vermiş, Qərb ədəbi modelinə daha yaxın əsərlər yazmışlar.

Dissertasiyanın nəticə hissəsində aparılan tədqiqata yekun vurulmuş əldə olunan əsas müddəa və qənaətlər ümumiləşdirilmişdir. Bu hissədə qeyd olunur ki, Avropasayağı ədəbiyyatın başlanğıcı hesab edilən Tənzimat ədəbiyyatı XIX əsrin yeni ədəbi mərhələdir.

Mədəniyyətçilik, osmançılıq, islamçılıq Tənzimat ideologiyasında əsas yerlərdən birini tutsa da, bu ədəbiyyatın estetik təməlində daha çox Qərb metodu, Qərb mədəniyyəti dayanmışdır.

**Dissertasiyanın əsas elmi-nəzəri müddəaları aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. Tənzimat ədəbiyyatı ənənələri və modern türk uşaq şeirinin mövzu dairəsi. Qafqaz Universiteti, II Beynəlxalq Türk xalqları uşaq ədəbiyyatı konqresinin materialları. Bakı, 11-13 oktyabr, 2012, s.307

2. Namiq Kamal yaradıcılığında ənənə və novatorluq problemləri. ADPU, "Pedaqoji Universitet Xəbərləri" jurnalı, Bakı, 2012, №3, s.205-209

3. Tənzimat dönəmi ədəbiyyatda forma, məzmun, ideya problemləri və İbrahim Şinasi yaradıcılığı. AMEA, Əlyazmalar İnstitutu, "Filologiya məsələləri" jurnalı, Bakı, 2013, №1, s.362-369

4. Ziya Paşa yaradıcılığında insan, vətən, hürriyyət ideyaları klassik və modern şeir yanaşmasında. BDU, "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal, Bakı, 2013, №1(85), s.136-140

5. Yeni dövr türk ədəbiyyatında ənənəvi və modern şeirin bədii estetikası. AMEA Şərqşünaslıq İnstitutunun "Şərq filologiyası məsələləri" məqalələr toplusu, VII buraxılış, Bakı, 2013, s.474-495

6. Проблемы традиционности и модернизма в Туретско-тюркской литературе периода Танзимат. «Ученые записки Таврического Национального Университета», Украйна, Таврия, 2013, т.26(65), №1, ч.1, стр.318-324

7. Sami Paşazadə Sezai yaradıcılığı. GDU "Elmi xəbərlər". Fundamental, humanitar və təbiət elmləri seriyası, Gəncə, 2013, №3, s.112-116

8. Klassik xalq şeiri ənənələri və Tənzimat ədəbiyyatı. Bakı, 09 dekabr 2013-ci il tarixdə AMEA-da keçirilmiş Böyük Türk şairi Yunus Əmrənin həyat və yaradıcılığına həsr olunmuş "Yaşayan Yunus Əmrə" beynəlxalq elmi konfransı. Bakı, 2013. s.766-772

9. Türkiyədə Tənzimat dövründə qərb ənənəsinin nəsrə, poeziyaya təsiri və teatr. GDU "Elmi xəbərlər". Fundamental, humanitar və təbiət elmləri seriyası, Gəncə, 2014, №3, s.71-74

10. Преимущество литературно-эстетических принципов запада в творчестве Акрама Реджаизаде и Абдульхага Гамида. "Проблемы Современной науки" Выпуск 20 г. Ставраполь, 2015, стр.130-136

**Юнусова Гюнель Камиль гызы**

# ТРАДИЦИЯ И НОВАТОРСТВО В ПОЭЗИИ ТАНЗИМАТ

## Резюме

Диссертация посвящена проблеме изучения традиции и новаторства в поэзии Танзимат. Она состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во вводной части обосновывается актуальность, объект и предмет, цели и задачи, теоретико-методологические основы, история исследования вопроса, научная новизна, теоретическая и практическая значимость, апробация и структура работы.

В первой главе, озаглавленной «Поэзия Танзимат II половины XIX века как новый период тюркской литературы состоит из двух параграфов – «Литература Танзимат и её принципы» и «Взаимосвязь традиционного модернисткого стиха в новом периоде тюркской поэзии, проблемы художественной эстетики и творческой позиции. В первом параграфе изучаются проблемы литературы Танзимат, общественно-политические условия, в которых она формировалась, научно-культурные, литературно-ценностные особенности периода.

В процессе исследования внутри художественно-эстетических принципов достаточно роль отведена прозе, драматургии и поэзии в литературе Танзимат. Во втором параграфе анализируются некоторые особенности новой тюркской поэзии в период Танзимат, обращается внимание на взаимосвязь традиционного и модернистского стиха, изучаются их художественно-эстетические особенности, указывается на то, как диванный стих уступал место модерн стиху. В свете этого в сравнительно – сопоставительном плане изучаются форма и тема произведений Дж.Руми, С.Велед, Ю.Имре, Нефи, Надим, Шейх Галиб, Иззет Мола, Эндерунлу Васиф и другие с представителями поэтов Танзимат И.Шинаси, А.Халид, Н.Камал, Р.Экрем и др.

Во второй главе «Литературные течения в период Танзимат. Проблемы формы, темы и идеи, также разделённой на два параграфа, в первом скрупулёзному анализу подвергаются творчество представителей первого поколения Литературы Танзимат (1860-1880) и представители, которые за основу брали «Искусство для общества» И.Шинаси, З.Паши, Н.Кямала и др. где их творчество рассматривается в контексте содержания, идеи, языка и т.д. Отказ от

диванного стиха в период Танзимат или его защита в то же время во главу угла поставил вопрос диаметрально противоположного характера, как в части формы, так и содержания. Именно здесь проблемы литературы Танзимат изучаются в плане и на основе творчества И.Шинаси, З.Пашы, Н.Кямала и др. Во втором параграфе главы анализируются творчества представителей литературы Танзимат (1880-1895), утвердившие платформу «Искусство для общества» Р.Экрема, А.Халида, С.П.Сезаи и др. Помимо всего прочего здесь особое внимание обращается на такие образцы творчества названных поэтов, где приоритетным являлось использование западно-европейских литературно-эстетических принципов.

В заключительной части диссертации подытоживаются общие выводы, относительно исследуемой темы.

**Yunusova Gunel Kamil qızı**

**TRADITION AND INNOVATION IN THE POETRY OF THE TANZIMAT**

**Summary**

The thesis was devoted to the study of tradition and innovation in the poetry of the Tanzimat. The thesis includes an introduction, two chapters, conclusion and bibliography.

The introduction is given urgently to the subject, object and subject, goals and objectives, theoretical and methodological foundations, scientific novelty, the theoretical and practical significance, opinions about work and the structure of the testing isledovanie.

The first chapter of the thesis is called "Tanzimat Turkish literature as a new stage in the second half of the nineteenth century poetry." The first chapter is in turn divided into two halves - "Literature Tanzitmat and its principles" and "A new era of traditional and modern Turkish poezii- interaction hudozhestvennoya aesthetics problems position. "In the first poluglavie, analyzes, social and political conditions during the formation of the literature Tanzimat, its cultural, scientific, literary agents, and others. The study of artistic and aesthetic principles of literature tanzimat: prose, drama and originality of poetry devotes special attention. In the second poluglavie analyzed with different functions, the interaction of traditional poetry and modern poetry, art and aesthetic functions, sofa to give poetry its rightful place, and modern poetry in the new Turkish tanzimatskoy poetry. The problem of the East-West there are more analyzed in terms of the literature values, traditional poetry, and this time in terms of form and subject matter is based on the work of J.Rumi S.Valad, J.Emre. Nephi, Nedim, Sheikh Ghalib, Izzet Molla, Vasif Enderu and others. They are compared with the Tanzimat poets such as A. Hamid, Kamal N., R.Akram.

The second chapter is called "Literary trends in the Tanzimat period. The forms, themes and ideas, problems." In turn, this chapter is divided into two poluglavie. First Generation poluglavie studying literature and literary Tanzimat (1860-1880) and the community, which is "based on the ideas are analyzed in terms of language. I.Shinasi principles of the content of poetry, H. Pasha N.Kamala". In the second poluglavie analyzed period of the Tanzimat, a sofa that otkazyvalis defend it as a poem, a traditional form of poetry. They only wanted to keep the traditional form of poetry, which is considered the "art for art" in the defense of the principles of R.Akram A.Hamid, Sh.Sezai. The aforementioned artists to be creative Western literary and aesthetic principles rather than focus on the rule of force.

Finally, lists lists the scientific findings in the study.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ВОСТОКОВЕДЕНИЯ им. акад. З.М. БУНИЯТОВА**

*На правах рукописи*

**ЮНУСОВА ГЮНЕЛЬ КАМИЛЬ гызы**

# ТРАДИЦИЯ И НОВАТОРСТВО В ПОЭЗИИ ТАНЗИМАТ

**5717.01- Литература тюркских народов**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по филологии

**БАКУ-2016**